# Avropa İttifaqı Azərbaycanla əlaqələri inkişaf etdirmək niyyətindədir



Milli Məclisin Sədri Oqtay Əsədov oktyabrın 4-də Avropa İttifaqının Brüsseldə akkreditə olunmuş səfirlərinin daxil olduğu Avropa İttifaqı Şurasının Siyasi və Təhlükəsizlik Komitəsinin nümayəndə heyəti ilə görüşdü. Görüşdə Azərbaycan və Avropa İttifaqı arasındakı əlaqələr və əməkdaşlığın perspektivləri barədə söhbət açıldı.

Ölkəmizin Avropa İttifaqı (Aİ) ilə əlaqələrindən bəhs edən Milli Məclisin Sədri Oqtay Əsədov qeyd etdi ki, Azərbaycan Aİ, eləcə də bu quruma üzv olan ölkələrlə əməkdaşlığa böyük önəm verir. Geniştərkibli nümayəndə heyətinin Azərbaycana olan bu səfəri isə iki tərəf arasındakı münasibətlərin daha da inkişaf etdirilməsinə töhfə verəcək. Sədr vurğuladı ki, Şərq tərəfdaşlığı istiqamətində artıq ikitərəfli əməkdaşlıq inkişaf etməkdədir. Azərbaycan Aİ ilə hərtərəfli sazişin imzalanması istiqamətində işlərə başlayıb və ölkə bunun üçün əlindən gələni edəcək.

Qeyd edildi ki, müəyyən dairələr Azərbaycanla Avropa İttifaqı əlaqələrinin inkişaf etdirilməsini istəmirlər. Bunun üçün zaman-zaman bəzi qurumlarda Azərbaycan əleyhinə qərarlar qəbul edilir, yaxud qərəzli hesabatlar hazırlanır. Xüsusən də erməni lobbisi bu istiqamətdə ciddi səylər göstərir və bəzi beynəlxalq qurumlara təsir etməyə çalışır. Amma Azərbaycan öz yolu ilə gedərək Avropaya inteqrasiyanın və Avropa təsisatları ilə hərtərəfli əməkdaşlığın tərəfdarıdır.

Avropa İttifaqı Şurasının Siyasi və Təhlükəsizlik Komitəsinin sədri Volter Stivens Bakıya ilk dəfə 2006-cı ildə gəldiyini və o vaxtla müqayisədə şəhərin hədsiz dərəcədə inkişaf etdiyini vurğuladı. Qeyd etdi ki, Azərbaycana gələn nümayəndə heyətinin tərkibində Aİ-yə daxil olan 28 ölkənin səfirləri yer alıb. Onların hər birinin, eləcə də Avropa İttifaqının Azərbaycana mövqeyi birmənalıdır: ikitərəfli əlaqələri inkişaf etdirmək. Onun sözlərinə görə, Azərbaycanla Aİ arasındakı əlaqələr artıq yeni inkişaf mərhələsinə qədəm qoyur. Azərbaycanla yeni hərtərəfli sazişin imzalanmasına hər iki tərəf ciddi səy göstərməlidir.

V.Stivens qeyd etdi ki, Azərbaycan tolerant və multikultural ölkədir. "Biz təhlükəsizlik sahəsində, eləcə də terrorizmlə mübarizədə Azərbaycanın yaxşı əməkdaşlığını görürük. İqtisadiyyatın daha çox şaxələndirilməsi istiqamətində ölkə rəhbərliyinin atdığı addımlardan xəbərdarıq. Məlumatımız var ki, Azərbaycanda penitensiar sahədə müəyyən təkmilləşdirmə işləri aparmaq üçün qanunvericiliyə müvafiq dəyişikliklər təklif olunub. Bunların hamısı insan hüquqlarının müdafiəsi baxımından çox yaxşı haldır"-, deyə qonaq əlavə etdi.

Sonra Avropa İttifaqının Brüsseldə akkreditə olunmuş Efiopiya, Finlandiya və Fransadan olan səfirləri danışdılar. Bildirildi ki, Avropa İttifaqının qarşısındakı əsas hədəflərdən biri də Azərbaycanla əlaqələri möhkəmləndirməkdən ibarətdir.

Qonaqların suallarını ətraflı şəkildə cavablandıran Oqtay Əsədov son illərdə Azərbaycanın əldə etdiyi siyasi və iqtisadi uğurlardan danışdı. Azərbaycanın irimiqyaslı enerji və nəqliyyat layihələrini xatırladan Sədr ölkəmizin Avropanın enerji təhlükəsizliyindəki roluna diqqət çəkdi.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onun həllinə dair bir sıra beynəlxalq təşkilatların qəbul etdiyi qərarlar və onların icrasız qalmasına dair fikirlər də səsləndirildi.

***Elgün MƏNSİMOV,***
***Fərman BAĞIROV (foto),***
***"Azərbaycan"***

Azərbaycan.- 2017.- 5 oktyabr.- S.4.